İPƏK YOLU, No.4, 2024, səh.125-130
https://doi.org/10.30546/1810-911X.2024.4.130

# BƏDİİ ZAMANDA KEÇMİŞİN SİNTAKTİK İFADƏ VASİTƏLƏRİ

**Yeganə İsgəndərova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: i.yegana90@hotmail.com

**Xülasə.** Məqalədə bədii zamanda keçmişin ifadə vasitələri təhlil edilir. Bədii zamanda keçmiş zaman mexanizmi dedikdə, bədii mətnlərdə keçmiş zamanın işlənmə prinsipləri nəzərdə tutulur. Məqalədə dilçilik ədəbiyyatında zaman münasibətlərinin dildə inkişafı və ifadəsi məsələlərinə həsr olunmuş bir çox əsərlər təhlil edilmişdir.

**Açar sözlər:** Zaman, sintaktik ifadə vasitələri, termin, məna.

## SYNTACTIC MEANS OF EXPRESSION OF THE PAST IN THE ARTISTIC TENSE

**Yegana Isgandarova**
*Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes the means of expressing the past in literary tense. The mechanism of past tense in literary tense refers to the principles of the development of the past tense in literary texts. The article analyzes many works in linguistic literature devoted to the development and expression of time relations in language.
**Keywords:** Time, syntactıc means of expressıon, termin, meaning.

## СИНТАКСИЧЕСКИЕ СРЕДСТВА ВЫРАЖЕНИЯ ПРОШЛОГО В ХУДОЖЕСТВЕННОМ ВРЕМЕНИ

**Егана Искендерова**
*Азербайджанский Государственный Педагогический Университет, Баку, Азербайджан*

**Резюме.** В статье анализируются средства выражения прошлого в художественном времени. Механизм прошедшего времени в литературном времени относится к принципам отработки прошедшего времени в художественных текстах. В статье анализируются работы, посвященные вопросам развития и выражения временных отношений в языке, в лингвистической литературе.
**Ключевые слова:** Время, синтаксис, средство, термин, значение.

Son zamanlar dilçilikdə *"bədii zaman"* terminինə çox rast gəlinir. Bu terminin məna baxımından tədqiqində Z.Y. Turayevanın tədqiqatları seçilir. Onun əsərlərində qrammatik və bədii zaman anlayışı məzmun baxımından müəyyənləşdirilir [3, s.210]. Müəllif qeyd edir ki, *"qrammatik və bədii zamanların hər biri ayrıca zaman forması kimi obyektiv, perseptual və fərdi zamanın xassələrini özünəməxsus şəkildə əks etdirsə də, qrammatik zaman iyerarxik cəhətdən daha aşağı səviyyəli kateqoriya olduğu üçün bədii zamana tabedir"*. Qrammatik və bədii zamanları iyerarxiya nöqteyi nəzərindən tədqiq edərək, o, belə bir nəticəyə gəlir: *"Qrammatik zaman daxilində müəyyən bir hesablanma nöqtəsi vardır və bütün digər tərz-zaman formaları birbaşa və ya dolayısı ilə ona istiqamətlənir. Bədii zaman sistemi daxilində bir neçə hesablanma nöqtəsi ola bilər"* [3, s.37]. Müəllifin qrammatik və bədii zaman anlayışları ilə bağlı mülahizələri bir çox cəhətinə görə mübahisə doğurur. Bu məsələnin araşdırılması başqa bir tədqiqatın mövzusu ola bilər. Burada isə sadəcə onu qeyd etmək olar ki, Z.Y. Turayevanın bədii zaman konsepsiyası ilk dəfə olaraq mətnə proyeksiya edilən funksional-

semantik sahə anlayışına əsaslanır. Mətndə dil zamanının vəzifələri bədii zamanın lay və yarımlaylarının münasibətləri vasitəsilə ifadə edilir. Bədii zamanın dil zamanını özünə tabe etməsi barəsindəki fikirlər də buradan qaynaqlanır. Məhz bu mülahizələrdən faydalanaraq Z.Y. Turayeva bədii zamanla dil zamanını və deməli, temporallığı eyniləşdirir. Bununla çətin razılaşmaq olar, çünki məlum olduğu kimi, *"linqvistik planda nitqdə (mətndə) elə bir şey yoxdur ki, dildə olmasın. Cümlələr, söyləmlər və ya mətnlər hər bir konkret dilin sistemi ilə həmin sistemin səviyyə və vahidlərinin müəyyən iyerarxiyası kimi idarə olunur"* [3, s.74]. Ona görə də dil formalarının, o cümlədən zaman formalarının mətn funksiyası dilin müxtəlif səviyyələrinə aid olan vahidlərin potensialını reallaşdırmaqdan ibarətdir. Bu isə bədii zamanın dil zamanının konkret özünüifadə vasitəsi kimi çıxış etməsi deməkdir. Göründüyü kimi, dilçilik ədəbiyyatında zaman anlayışının dildə ifadəsi ilə bağlı işlədilən terminlər çoxsaylı olduğu qədər də qarışıqdır. Həmin terminlərin qaydaya salınması üçün xeyli iş görülməlidir. Bədii zamanda keçmiş zaman mexanizmi dedikdə, bədii mətnlərdə keçmiş zamanın işlənmə prinsipləri nəzərdə tutulur. Keçmiş zaman strukturuna nəzər salsaq, ingilis dilinin qrammatikasında mühüm məqamları təfərrüatlı şəkildə göstərmək lazım gəlir. Zaman münasibətlərinin ifadə edilməsi baxımından formalaşaraq dilin müxtəlif səviyyələrində semantik kateqoriya şəklində bir-birini müşayiət edən ifadə vasitələrinin mövcudluğu haqqında müxtəlif mülahizələr vardır. Kommunikasiyada, zaman münasibətlərinin qurulması zamanı kateqoriyalararası qarşılıqlı əlaqə baş verir. Dilin müxtəlif səviyyələrində zaman münasibətlərinin təzahürü digər dillərin materialları əsasında araşdırılmışdır. Zamanın həm morfoloji, həm də sintaktik, leksik və hətta mətn kateqoriyası kimi öyrənilməsi məsələləri istər xarici, istərsə də yerli tədqiqatçıların diqqətini cəlb etmişdir. Zaman kimi fəlsəfi-məntiqi kateqoriyanın linqvistik baxımdan araşdırılması təkcə dilin morfoloji səviyyəsi ilə məhdudlaşmır, eləcə də həmin hadisənin səviyyələrarası təqdimatı məsələlərini işıqlandırır. Bu baxımdan, tədqiqat obyekti kimi araşdırdığımız mövzuya olan maraq dilin ümumi inkişaf qanunauyğunluqları, təfəkkür və dil arasındakı ənənəvi münasibətlər baxımından tamamilə təbiidir. Dilçilik ədəbiyyatında zaman münasibətlərinin dildə inkişafı və ifadəsi məsələlərinə həsr olunmuş bir çox əsərlər vardır. Bu əsərlərdə, obyektiv zaman kateqoriyasının özünəməxsus müxtəlif və rəngarəng ifadə vasitələri təsnifatlandırılmışdır: 1) morfoloji vasitələr (feilin zaman formaları); 2) sintaktik vasitələr (zaman budaq cümləsi, xüsusi zaman bağlayıcıları, təktərkibli bəzi cümlə tipləri və s.); 3) leksik vasitələr (zaman anlayışlı və ya temporal isimlər, sifətlər, zərflər, sabit birləşmələr); 4) leksik-qrammatik vasitələr (temporal isimlərin müəyyən sözönülərlə və ya hal şəkilçiləri ilə işlənən formaları, eləcə də temporal isimlərin sifət və əvəzliklərlə birlikdə əmələ gətirdikləri sərbəst söz birləşmələri).

Aparılmış araşdırmalar göstərir ki, sintaktik temporallıq və ya sintaktik zaman mürəkkəb olması ilə yanaşı həm də az öyrənilmiş kateqoriyalardandır. Bu kateqoriyaya müxtəlif münasibət və yanaşmalar mövcuddur. Bəzi tədqiqatçılar sintaktik zaman anlayışını

qəbul edir, bəziləri isə rədd edir. Sintaktik zaman anlayışı keçmiş sovet dilçiliyinə akademik A.A. Şaxmatov tərəfindən gətirilmişdir.

Akademik V.V. Vinoqradov bu kateqoriyanı tədqiq edərək daha dərindən öyrənmiş və sintaktik zamanı predikativliyi əmələ gətirən üç mühüm komponentdən biri hesab etmişdir. O, belə nəticəyə gəlmişdir ki, *"predikativlik ümumi qrammatik məna olaraq sintaktik modallıq, sintaktik zaman və sintaktik şəxs kimi xüsusi qrammatik mənalarda təzahür edir. Bu üç qrammatik məna bütövlükdə fikri gerçəkliklə bağlayır"* [4, s.267]. Akademik V. Vinoqradov ənənəsinə uyğun olaraq, müasir rus ədəbi dilinin qrammatikasında sintaktik zaman obyektiv modallıqla vəhdət təşkil edərək (yəni qrammatik zaman və şəkil kateqoriyalarının vəhdəti kimi) predikativliyi formalaşdıran kateqoriya hesab olunur. Zaman predikativ əlamətin (əlbəttə, modal və şəxs səciyyəsi ilə birlikdə) tərkib hissəsi, həm də məcburi hissəsidir. Bu fikir bütün dilçilər tərəfindən qəbul edilmişdir. Bununla yanaşı, onlar bu kateqoriyanın həcmini və cümlədə zamanın ifadə olunduğu vasitə və üsulların kəmiyyətini müxtəlif şəkildə müəyyənləşdirirlər. T.P. Lomtev *"cümlə səviyyəsində ifadə olunan sintaktik kateqoriyalar sistemini müəyyənləşdirmiş və həmin kateqoriyalar əsasında cümlənin sintaktik paradiqmasını tədqiq etmişdir"* [5, s.126]. Onun qənaətinə görə, müəyyənləşdirilmiş sintaktik kateqoriyalar sistemi morfoloji kateqoriyalar sistemini təkrar etmir. N.Y. Şvedova isə sintaktik zaman kateqoriyasının mövcudluğunu qəbul edir və bu kateqoriyaya V.V. Vinoqradov ənənələri əsasında yanaşır. Aşağıdakı dəlillərlə o, sintaktik zamanın mövcudluğunu əsaslandırır: *"Birinci, dil öz qrammatikasına görə abstraksiyalar sistemidir və burada mücərrəd obrazlar bir-biri ilə mürəkkəb qarşılıqlı əlaqədədir; həmin mücərrəd obrazlarla sonsuz və məhdud sayda konkret vahidlər, yəni söz cildində ifadə edilmiş vahidlər qurula bilər. İkinci, dil nominasiyalar sistemidir (nominasiya dedikdə, o, məlumatı nəzərdə tutur. Nominasiyada isə söz, söz-forma birləşməsi və cümlə müxtəlif dərəcə və şəraitlərdə iştirak edir. Bütün bu vahidlər dilin müxtəlif səviyyələrində adlandıra (işarələyə) bilir; həm də nominasiya sferasında müxtəlif səviyyəli vahidlərin qarşılıqlı əlaqəsi nəticəsində elə adlandırma situasiyaları yaranır ki, onlarda söz-forma və ya söz birləşməsi adlandırmaqla eyni vaxtda "gizli" bildirilir. Üçüncü, dil xəbərlərin və məlumatların müşahidə və qavrayışlarla bizə verilən ardıcıllığıdır"* [6, s.90]. Dilçilik ədəbiyyatında *"sintaktik zaman"* anlayışını qəbul etməyən müxtəlif mübadilə və fikirlərlə də qarşılaşırıq. *"Sintaktik zamanı"* anlayışını qəbul etməyən tədqiqatçılar belə fikir irəli sürürlər ki, sintaktik zamanda morfoloji zaman feillə bağlılığını göstərir. A. Bondarko, *"sübut və dəlillərə əsaslanaraq sintaktik zaman anlayışına daha sərt mövqedən yanaşmışdır"* [7, s.16-25]. O, sintaktik zamanı anlayır və ondan sadə cümlənin qrammatik mənası kimi imtina edir. Tədqiqatçı morfoloji kateqoriyanın sintaksis səviyyəyə keçirilməsinin qanunauyğun olmadığını vurğulayır və onun morfoloji və sintaktik zamanların qarışdırılmasına, həmçinin sintaksis sferasını həddən artıq şişirtməsinə səbəb olur. Sadə cümlənin sintaktik strukturunda feilin zamanlara görə dəyişməsi öz əksini tapmır və bu struktur dəyişməz olaraq qalır. *"Я здесь живу - жил - буду жить"* tipli cümlələri misal gətirərək, A. Bondarko bunu *"eyni cümlə modelinin morfoloji variantları"*, onun *"morfoloji potensialı"nın reallaşması adlandırır.* Beləliklə,

tədqiqatçı "*feil formalarının kontekstlə bağlı olan bütün fəaliyyət hallarını morfologiyaya və ya morfoloji kateqoriyaların fəaliyyət sahəsinə aid edir və belə qənaətə gəlir ki, bu, "funksional morfologiya"* sahəsini əhatə edir [7, s.16-25]. Son dövrlərdə, dilçilikdə temporallığın morfoloji və sintaktik ifadə vasitələri müqayisəli şəkildə təhlil edilir və onların ümumi və müqayisəli cəhətləri tədqiq olunur. Rus dilçiliyində sintaktik zaman kateqoriyasını xüsusi olaraq tədqiq etmiş T.Y. Şapovalova bu zaman kateqoriyasının morfoloji zaman kateqoriyasına olan münasibəti barəsində yazır: *"Feilin sintaktik zamanı morfoloji zamana istinad etsə də, öz xüsusiyyətlərinə görə ondan seçilir. Bildiyimiz kimi, morfoloji zaman kateqoriyası yalnız indikativ formalarda təzahür edir, bundan fərqli olaraq, sintaktik zaman kateqoriyası isə bütün cümlələrdə ifadə olunur.* T.Y. Şapovalova morfoloji zaman kateqoriyası ilə sintaktik zaman kateqoriyasının müqayisəsini aşağıdakı şəkildə təsnifatlandırır: *"1. Sintaktik zaman bütövlükdə cümlənin özünə xasdır. 2. Sintaktik zaman cümlənin fakültativ yox, məcburi ünsürüdür. 3. Sintaktik zamanda ona xas olan xüsusiyyətlərin semantikasından fərqlənən məzmun keyfiyyəti vardır. 4. Morfoloji kateqoriyadan fərqli olaraq, sintaktik zamanın daha geniş və spesifik ifadə vasitələri vardır*" [1, s.4]. O, sintaktik zamanın ifadə vasitələrindən danışarkən vurğulayır ki, sintaktik zaman mənası da cümlənin əsas qrammatik mənası kimi, cümlənin məzmun və formal-qrammatik tərkib hissələrinin qarşılıqlı təsiri sayəsində yaranır. *"Cümlə gerçəkliklə canlı əlaqəni saxlayır"* [8, s.141]. Məlum olduğu kimi, zaman məsələlərinə sadəcə feil zamanlarının, hətta morfoloji zamanın sintaksis səviyyəsinə keçirilməsi kimi münasibət bildirənlər də vardır. Bununla yanaşı, həmin kateqoriyaya zaman münasibətlərinin dildə ifadəsi üçün işlədilən və çox mürəkkəb qarşılıqlı əlaqədə olan formaların sintaktik səviyyədə birləşərək dilin kommunikativ imkanlarını təzahür etdirən məcmusu kimi yanaşanlar da vardır. Bu tədqiqat işində, keçmiş zamanın dildə sintaktik vasitələrlə ifadə olunmasına sintaktik zaman və ya sintaktik temporallığa istinad olunaraq onların məcmusu kimi yanaşılır. Bu sintaktik ifadə vasitələri müxtəlifdir. Bu yönümlü yanaşma temporallığın funksional-semantik sahə kimi tədqiq edilməsi ilə vəhdət təşkil edir. Sintaktik zaman kateqoriyasının İngilis dilində ifadə vasitələri iki əsərdə tədqiqat obyekti kimi öz əksini tapmışdır. Bunlar T.A. Vinoqradovanın - Müasir ingilis dilində temporal münasibətlərin sintaktik ifadə vasitələri və N.V. Petraşın - Müasir ingilis dilində temporal sintaksemlər namizədlik dissertasiyalarıdır. T.A. Vinoqradovanın tədqiqat işində cümlənin sintaktik-semantik ünsürlərindən biri olan temporal mənalı genişlənmənin struktur və semantik xarakteristikası yenidən araşdırılır və temporal genişlənmə yeni nöqtəyi-nəzərdən təsvir olunaraq sistemləşdirilir. O, göstərir ki, *"cümlədə temporal mənalar temporal genişlənmə vasitəsilə verilir"* [9, s.3]. N.V. Petraşın dissertasiyasında temporallığın sintaktik-semantik hissəciyi olan elementar sintaktik vahidlər, sintaksemlər araşdırılır. Bu araşdırmada temporal sintaktik vahidlər ilk dəfə olaraq diferensial sintaktik-semantik əlamətlərin məcmusu kimi tədqiq edilmişdir. Həmin əlamətlərin sayı 14-ə çatır. Feil və isimlərin yanında işlənmə nöqteyi-nəzərindən təhlil olunan 38 sintaksem həmin əlamətlər əsasında formalaşmışdır. P.A. Suçkova və N.V. Petraşın - Qeyri-müəyyən temporal

sintaqmlar məqaləsində müəyyənləşdirilir ki, *"bu vahidlərin xarakterik xüsusiyyəti onların məzmununda hansısa kateqorial əlamətin (substansiya, kvalifikasiya, yaxud proses əlamətlərinin) olmamasıdır"* [10, s.166]. Onlar eyni zamanda bildirirlər ki, *"mürəkəb söz və söz birləşməsinin sərhədləri indiyədək dilçilikdə tam müəyyənləşməmiş qalır. Bu zaman mürəkkəb sözün sərhədlərinin müəyyənləşdirilməsində orfoqrafiya etibarlı meyar ola bilmir (müqayisə et: someday, sometime, some-time, some-day). Söz birləşməsi və sözün ayırd edilməsi üçün yaradılmış meyarlar sistemi bütün halları əhatə etmir. Faktik materialın təhlilindən aşkar olur ki, qeyri-müəyyən temporal sintaqmların çox vaxt öz variantlar sistemi mövcud olur: someday / some day, sometime / some time variantlarından savayı belələrinə də rast gəlmək olur: at some time, some time or an another time"* [10, s.167]. Bu prizmadan yanaşaraq deyə bilərik ki, sintaktik zamanın ifadə vasitələri müəyyən qədər tədqiq edilmişdir. Buna baxmayaraq, bu tədqiqatlarda çatışmayan cəhətlər, fikrimizcə, onların sahə tədqiqatlarına uyğun aparılmamasıdır. Bu tədqiqat obyektlərindən bunu gözləmək də düzgün olmazdı, çünki sözü gedən tədqiqatlar müxtəlif kateqoriyaların araşdırılmasına həsr olunmuşdur və zamanların sintaktik ifadə vasitələrinin ayrı-ayrılıqda sistemli şəkildə işlənməsinə yönəldilməmişdir. Analitik dil kimi səciyyələndirilən ingilis dilinin spesifik cəhətlərindən biri isə bu dildə xüsusi sintaktik konstruksiyaların olmasıdır. Zaman və modallıq mənalarına malik olan bu konstruksiyaları qrammatik-leksik konstruksiyalar adlandırırlar. Bu konstruksiyalarda tam və ya qismən desemantikləşmiş feil birinci komponent, məsdər və ya cerund forması isə ikinci komponent kimi işlənir. İkinci komponent əsas leksik nüvə kimi çıxış edir. Konstruksiyanın zaman mənası isə bütövlükdə birləşmədə öz əksini tapır. Belə birləşmələr özlərinin yarımqrammatikləşmiş təbiətinə görə ingilis dilinin zaman mikrosahələrində morfoloji nüvə ilə leksik periferiya arasında aralıq qat yaradır və bu birləşmələri temporallıq sahəsinin nüvəətrafı zonasına aid etmək olar. Used + infinitive, would + infinitive tipli birləşmələr buna keçmiş zaman mənalı nümunə kimi göstərilə bilər. Adətən, bu birləşmələr keçmişdə təkrarən baş vermiş hərəkətləri ifadə etmək üçün istifadə edilir. Eyni fikri gələcək zaman mənalı to be going + infinitive, to be about + infinitive, to be sure + infinitive, to be certain + infinitive, to be (un)likely + infinitive, to feel like + cerund, to be on the verge of + cerund, should/would like + infinitive, had better + infinitive, would rather + infinitive tipli birləşmələrə də aid etmək olar.

**Ədəbiyyat**

1. Шаповалова Т.Е. (2000), Категория синтаксического времени в руском языке. Москва, МПУ, 4.
2. Кацнельсон С.Д. (1972), Типология языка и речовое мышление. Ленинград, 141.
3. Тураева З.Я. (1979), Категория времени. Время грамматическое и время художественное (на материале англ. языка). Москва, Высшая школа, 210-212.
4. Виноградов В.В. (1975), Основные вопросы синтаксиса предложения (на материале русского языка). Москва, 267.
5. Ломтев Т.П. (1972), Предложение и его грамматические категории. Москва, 126.

6. Шведова Н.Ю. (1978), Синтаксическое время. Филологические Науки, No.3, 90-91.
7. Бондарко А.В. (1976), Теория морфологических категорий. Ленинград, 16-25.
8. Кацнельсон С.Д. (1972), Типология языка и речовое мышление. Ленинград, 141.
9. Виноградова Т.А. (1982), Синтаксические средства выражения темпоральных отношений в современном английском языке. Автореферат диссертации кандидат филологических наук. Москва, 3.
10. Сучкова П.А., Петраш Н.В. (1987), Темпоральные индефинитные синтагмы. Проблема синтаксиса словосочетания и предложения в современном английском языке. Пятигорск, 166-179.